***BAKI FOND BİRJASI "GƏNC İNVESTOR" MÜSABİQƏSİNİ ELAN EDİR***

*Bakı Fond Birjası "Bilik Mübadiləsi" proqramı çərçivəsində tələbələrin qiymətli kağızlar bazarına marağının artırılması və savadlı kadrların yetişdirilməsini təşviq məqsədi ilə ADİU tələbələri arasında GƏNC İNVESTOR keys müsabiqəsini elan edir.*

***Müsabiqədə kimlər iştirak edə bilər ?***

Azərbaycan Dövlət İqtisad Universitetinin bütün fakültələrinin 2-ci, 3-cü və 4-cü kurs tələbələri

***Müsabiqənin tələbləri nədir ?***

Müsabiqə tələbələrdən maliyyə vəziyyəti ilə əlaqədar çətinliklə üzləşən böyük bir şirkətin qiymətli kağızlar bazarı vasitəsilə maliyyələşməsi probleminə həll yolu təklif etməyi tələb edir.

Müsabiqəyə qoşulmaq istəyən tələbələr veriləcək keysi (yaranmış problemi) analiz etməli və analizin nəticəsi olaraq yazılı esse təqdim etməlidirlər.

Keys materialları özündə real bir şirkətin cari və keçmiş fəaliyyəti haqqında mühüm məlumatları, eləcə də onun maliyyə hesabatlarını əks etdirir. Keysin qısa məzmunu aşağıdakı kimidir:

*"Moda sənayesində fəaliyyət göstərən böyük bir şirkət fəaliyyətini Asiya istiqamətində genişləndirməyi planlaşdırır. Lakin, növbəti bir il ərzində ödəməli olduğu uzunmüddətli borc öhdəliklərini nəzərə alaraq, şirkət həm genişlənmə planını reallaşdırmaq, həm də borcu ödəmək üçün vəsaitin tapılması kimi ciddi bir sual ilə üz-üzədir.*

*Şirkət, qlobal bazarların təklif etdiyi mümkün maliyyələşmə imkanlarından ən səmərəli şəkildə faydalanmaq istəyir. Bu məqsədlə o zəruri maliyyələşmə planının hazırlanması üçün, maliyyə bazarlarının iştirakçısı olan bir investisiya şirkətində çalışan cənab Santiniyə müraciət etmişdir.*

*Cənab Santini çox gözəl başa düşür ki, belə bir vəziyyətdə mükəmməl maliyyələşmə planının olması müştərisi olan moda şirkətinin gələcəyi üçün nə dərəcədə əhəmiyyətlidir.*

*Şirkətin cari vəziyyətində ən optimal maliyyələşmə yolunu təklif etmək üçün isə cənab Santininin SİZİN maliyyə biliyinizə və analiz qabiliyyətinizə ehtiyacı var. "*

***Esselər necə qiymətləndiriləcək ?***

Müsabiqənin qalibləri təqdim olunmuş esselərin müəllifləri arasından seçiləcəkdir. Esselərin qiymətləndirilməsi aşağıdakı kriteriyalar əsasında aparılacaqdır.

- Təhlilin keyfiyyəti
- Keysin analizi zamanı müvafiq bilik və bacarıqlardan istifadə
- Təhlil zamanı verilən maliyyə hesabatlarından istifadə
- Yazı üslubu (sistemlilik, oxunaqlılıq, istinad)

Göstərilən şərtlər üzrə maksimum bal toplamış iştirakçı Gənc İnvestor müsabiqəsinin qalibi elan olunacaqdır. İlk 3 yerin sahibləri aşağıdakı şəkildə mükafatlandırlacaqdır:

| | |
|---|---|
| **I YER** | **800 AZN** |
| **II YER** | **400 AZN** |
| **III YER** | **300 AZN** |

***Esseni nə cür yazmalıyam ?***

Müsabiqədə qiymətləndirmə yalnız esselər əsasında aparılacaqdır. Odur ki, hər bir iştirakçı Essenin qeyd olunmuş tələblərə uyğun olduğundan əmin olmalıdır. Esse:

1. Maksimum 1500 sözdən ibarət olmalıdır
2. Times new roman, 12 şritfi, 1.5 ara məsafəsi ilə yazılmalıdır
3. Plagiat məzmun olmamalıdır (Əks halda esse müəllifi müsabiqədən kənarlaşdırılacaqdır!)
4. Fərdi şəkildə yazılmalıdır
5. Azərbaycan və rus dillərində təqdim oluna bilər.

***Müsabiqədə iştirak etmək mənə nə qazandıracaq ?***

- Birinci, ikinci, üçüncü yer üçün nəzərdə tutulmuş pul mükafatları və digər hədiyyələr
- Müsabiqədə iştirak sertifikatı
- Müsabiqə keysinin həlli zamanı müasir biznes mühitində mühüm billik və bacarıqlar qazanma imkanı
- BFB tərəfindən təşkil olunmuş məlumat və tövsiyyə xarakterli seminarlarda iştirak
- Peşəkar münsiflər tərəfindən verilmiş şərh

***Müsabiqədə necə iştirak etməli ?***

Müsabiqədə iştirak etməyə iddialı olan tələbələr education@bse.az ünvanına email yazaraq (ad, soyad, ata adı, fakultə, ixtisas, kurs, əlaqə nömrəsini qeyd etməklə) **30 sentyabr 2015-ci il tarixinədək** qeydiyyatdan keçməlidirlər.

*Diqqət: Yarışma keysi Sizə qeydiyyatdan keçərkən istifadə etdiyiniz email ünvanına yarışma başlandığı tarixdə göndəriləcəkdir!*

**Müsabiqənin ilkin vaxt cədvəli* aşağıdakı kimidir:**

| | |
|---|---|
| Qeydiyyat müddəti | 30 sentyabr 2015-ci il tarixinədək |
| Təqdimat tədbiri | 30 sentyabr 2015-ci il |
| Esselərin qəbul edilməsi | 01 oktyabr 2015-ci il tarixindən – 26 oktyabr 2015-ci il tarixinədək |
| Mükafatlandırma tədbiri | 10 noyabr 2015-ci il |

**Qeyd edilmiş vaxt cədvəli dəyişdiyi təqdirdə əlavə məlumat veriləcəkdir.*